## Azərbaycan Respublikasında torpaqların yeni normativ qiymətinin müəyyən edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Torpaq islahatının həyata keçirilməsi zamanı kadastr qiymət rayonlarının dürüstləşdirilməsi ilə əlaqədar olaraq Dövlət Torpaq Komitəsi tərəfindən torpaqların normativ qiymətinin yenidən işlənilməsini və onun Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Baş Dövlət Vergi Müfəttişliyi və Dövlət Əmlak Komitəsi ilə razılaşdırılmasını nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasında torpaqların normativ qiymətinin müəyyən edilməsi barədə Əsasnamə", Kadastr qiymət rayonları və yarımrayonları üzrə torpaqların normativ qiyməti və "Kadastr qiymət rayonlarına və yarımrayonlarına daxil olan inzibati rayonların torpaqlarının normativ qiymətinin hesablanması üçün tətbiq edilən təshih əmsalları" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Torpağın normativ qiymətinin müəyyən edilməsi haqqında" 1996-cı il 17 oktyabr tarixi 145 nömrəli və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Torpağın normativ qiymətinin müəyyən edilməsi haqqında" 1996-cı il 17 oktyabr tarixli 145 nömrəli qərarına dəyişikliklər edilməsi haqqında" 1997-ci il 12 iyul tarixli 78 nömrəli qərarları qüvvədən düşmüş hesab edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 27 aprel tarixli 93 nömrəli qərarı ilə təsdiq edilmiş "Özəlləşdirilən dövlət müəssisə və obyektlərin yerləşdiyi torpaq sahələrinin normativ qiyməti haqqında Əsasnamə"nin 5-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"5. Respublikanın qəsəbə və kənd yerlərində özəlləşdirilən dövlət müəssisə və obyektlərinin altında yerləşən torpaq sahələrinin normativ qiyməti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 23 iyul tarixli 158 nömrəli qərarı ilə təsdiq edilmiş "Kadastr qiymət rayonları və yarımrayonları üzrə torpaqların normativ qiyməti"nə uyğun olaraq müəyyən edilir".

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 23 iyul 1998-ci il

158

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1998-ci il 23 iyul tarixli 158 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Azərbaycan Respublikasında torpaqların normativ qiymətinin müəyyən edilməsi haqqında

## ƏSASNAMƏ

1. Torpaqların normativ qiyməti torpaq kadastrı məlumatları, o cümlədən torpaqların keyfiyyət və iqtisadi qiymətləndirmə göstəriciləri əsasında 19 kadastr qiymət rayonu və 3 kadastr qiymət yarımrayonunda keyfiyyət qrupları üzrə differensial gəlirə görə bu Əsasnaməyə əlavə edilən təshih əmsalları tətbiq edilməklə *Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi (bundan sonra - ƏMDK)*tərəfindən müəyyən edilir.[1]

Biçənəklərin, kəndətrafı örüşlərin, yay və qış otlaqlarının torpaqlarının normativ qiyməti həmin torpaqlarda aparılmış geobotaniki tədqiqatların nəticələri əsasında bitki formasiyaları üzrə müəyyən edilmiş məhsuldarlığa görə hesablanır.

2. Respublikanın kadastr qiymət rayonları və yarımrayonları üzrə torpaqların normativ qiyməti Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilir.

3. Torpaq sahələri alınıb-satıldıqda, girov qoyulduqda, irsən verildikdə, onun barəsində digər əqdlər bağlandıqda torpaqların qiyməti bazar qiyməti ilə, lakin torpağın normativ qiymətindən az olmayaraq müəyyən edilir.

4. Torpaqların alqı-satqısı, girov qoyulması, bağışlanılması və irsən verilməsi və s. zamanı ~~*(dövlət müəssisə və obyektlərinin, habelə özəlləşdirilmiş müəssisə və obyektlərin yerləşdiyi torpaq sahələri istisna olmaqla)*~~ onun normativ qiyməti barədə *arayışın verilməsi və onun qeydiyyatı ƏMDK* tərəfindən həyata keçirilir.[2]

Dövlət müəssisə və obyektlərinin, habelə özəlləşdirilmiş müəssisə və obyektlərin yerləşdiyi torpaq sahələrinin normativ qiyməti barədə arayış verilməsi və onun qeydiyyatı *ƏMDK* tərəfindən həyata keçirilir.[3]

5. Torpaqların normativ qiymətinə dair qayimə (sertifikat) torpaq mülkiyyətçilərinə və ya istifadəçilərinə torpağa mülkiyyət, daimi və ya müvəqqəti istifadə hüququna dair hüquqi sənədlərlə birlikdə verilir. Torpaq icarəyə verildikdə həmin torpağın normativ qiymətinə dair qayimədəki (sertifikatdakı) məlumatlar tərəflər arasında bağlanan müqavilədə təsbit olunur.

6. Torpaqlarda aparılmış meliorativ və digər torpaq yaxşılaşdırma tədbirləri və ya qeyri-düzgün istifadə nəticəsində torpağın keyfiyyət göstəricilərinin dəyişdiyi halda torpaq mülkiyyəçilərinə və ya istifadəçilərinə verilmiş hüquqi sənədlərə əlavə edilmiş qayimələrdə (sertifikatlarda) həmin torpaqların normativ qiymətində qanunvericilikdə nəzərdə tutulmuş qaydada müvafiq dəyişikliklər aparılır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1998-ci il 23 iyul tarixli 158 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

## KADASTR QİYMƏT RAYONLARINA VƏ YARIMRAYONLARINA DAXİL OLAN İNZİBATİ RAYONLARIN TORPAQLARININ NORMATİV QİYMƏTİNİN HESABLANMASI ÜÇÜN TƏTBİQ EDİLƏN TƏSHİH ƏMSALLARI[4]

| Sıra -si | Kadastr qiymət rayonları, yarımrayonları və ora daxil olan inzibati rayonlar | Təshih əmsalları | |
|---|---|---|---|
| | | əkin və dinc | çoxillik əkmələr |
| 1 | 2 | 3 | 4 |
| **1.** | **Abşeron-Qobustan** | | |
| | 1. Abşeron | 1,35 | 1,0 |
| | 2. Hacıqabul (Nəvahi-Atbulaq massivi) | 1,0 | 1,1 |
| | 3. Xızı (düzən torpaqlar) | 1,31 | 1,15 |
| | 4. Siyəzən (Liman gölünə kimi torpaqlar) | 1,45 | 1,21 |

| | | | |
|---|---|---|---|
| **2.** | **Şabran-Xaçmaz** | | |
| | 1. Xaçmaz | 1,27 | 1,21 |
| | 2. Şabran (düzən torpaqlar) | 1,0 | 1,06 |
| | 3. Siyəzən (düzən torpaqlar) | 1,0 | 1,06 |
| | 4. Quba (düzən torpaqlar) | 1,29 | 1,0 |
| | 5. Qusar (düzən torpaqlar) | 1,09 | 1,11 |
| **3.** | **Qanıx-Türyançay** | | |
| | 1. Şəki (düzən torpaqlar) | 1,0 | 1,0 |
| | 2. Zaqatala (düzən torpaqlar) | 1,10 | 1,35 |
| | 3. Qax (düzən torpaqlar) | 1,12 | 1,33 |
| | 4. Oğuz (düzən torpaqlar) | 1,15 | 1,36 |
| | 5. Balakən (düzən torpaqlar) | 1,02 | 1,34 |
| | 6. Qəbələ (düzən torpaqlar) | 1,06 | 1,21 |
| **4.** | **Şəki-Zaqatala** | | |
| | 1. Şəki (dağ torpaqlar) | 1,0 | 1,0 |
| | 2. Zaqatala (dağ torpaqlar) | 1,24 | 1,31 |
| | 3. Qax (dağ torpaqlar) | 1,07 | 1,17 |
| | 4. Oğuz (dağ torpaqlar) | 1,09 | 1,07 |
| | 5. Balakən (dağ torpaqlar) | 1,14 | 1,18 |
| | 6. Qəbələ (dağ torpaqlar) | 1,13 | 1,06 |
| **5.** | **Qusar-Qonaqkənd** | | |
| | 1. Qusar (dağ torpaqlar) | 1,15 | 1,0 |
| | 2. Quba (dağ torpaqlar) | 1,17 | 1,21 |
| | 3. Şabran (dağ torpaqlar) | 1,27 | 1,13 |
| | 4. Siyəzən (dağ torpaqlar) | 1,27 | 1,13 |
| | 5. Xızı (dağ torpaqlar) | 1,0 | 1,05 |
| **5 a.** | **Xinalıq-Xaltan** | | |
| | 1. Qusar (orta və yüksək dağ torpaqlar) | 1,0 | 1,0 |
| | 2. Quba (orta və yüksək dağ torpaqlar) | 1,06 | 1,18 |
| **6.** | **Dağ-Şirvan** | | |
| | 1. Şamaxı | 1,0 | 1,0 |
| | 2. İsmayıllı | 1,06 | 1,04 |
| | 3. Ağsu (dağ torpaqlar) | 1,21 | 1,17 |
| | 4. Göyçay (dağ torpaqlar) | 1,12 | 1,14 |
| **6 a.** | **Qobustan-Xilmilli**[5] | | |
| | 1. Qobustan | 1,0 | 1,0 |
| **7.** | **Gəncə-Qazax**[6] | | |
| | 1. Samux | 1,0 | 1,28 |
| | 2. Şəmkir (düzən torpaqlar) | 1,07 | 1,25 |
| | 3. Göygöl (düzən torpaqlar) | 1,0 | 1,28 |
| | 4. Tovuz (düzən torpaqlar) | 1,01 | 1,27 |
| | 5. Ağstafa (düzən torpaqlar) | 1,08 | 1,30 |
| | 6. Qazax (düzən torpaqlar) | 1,02 | 1,29 |
| | 7. Goranboy (düzən torpaqlar) | 1,02 | 1,0 |
| **8.** | **Mil-Qarabağ** | | |
| | 1. Bərdə | 1,04 | 1,26 |
| | 2. Ağcabədi | 1,08 | 1,29 |
| | 3. Beyləqan | 1,07 | 1,28 |
| | 4. Tərtər | 1,09 | 1,30 |
| | 5. Ağdam (düzən torpaqlar) | 1,07 | 1,18 |
| | 6 . Keçmiş Ağdərə rayonunun ərazisi (düzən torpaqlar) | 1,0 | 1,0 |
| | 7. Xocavənd (düzən torpaqlar) | 1,01 | 1,13 |
| **9.** | **Arazboyu** | | |
| | 1. Zəngilan (düzən torpaqlar) | 1,04 | 1,0 |
| | 2. Füzuli (düzən torpaqlar) | 1,0 | 1,13 |
| | 3. Cəbrayıl (düzən torpaqlar) | 1,06 | 1,01 |
| **10.** | **Daşkəsən-Gədəbəy**[7] | | |
| | 1. Gədəbəy | 1,16 | |
| | 2. Daşkəsən | 1,10 | |
| | 3. Goranboy (dağ torpaqlar) | 1,09 | |
| | 4. Göygöl (dağ torpaqlar) | 1,07 | |
| | 5. Şəmkir (dağ torpaqlar) | 1,12 | |
| | 6. Tovuz (dağ torpaqlar) | 1,0 | |
| | 7. Ağstafa (dağ torpaqlar) | 1,08 | |
| | 8. Qazax (dağ torpaqlar) | 1,04 | |
| **11.** | **Laçın-Qubadlı** | | |
| | 1. Kəlbəcər | 1,0 | |
| | 2. Laçın | 1,26 | |
| | 3. Qubadlı | 1,28 | |
| | 4. Zəngilan (dağ torpaqlar) | 1,22 | |
| **12.** | **Dağ-Qarabağ** | | |
| | 1. Şuşa | 1,04 | 1,20 |
| | 2. Xocalı | 1,24 | 1,22 |
| | 3. Xocavənd (dağ torpaqlar) | 1,18 | 1,21 |
| | 4. Keçmiş Ağdərə rayonunun ərazisi (dağ torpaqlar) | 1,20 | 1,08 |
| | 5. Füzuli (dağ torpaqlar) | 1,0 | 1,0 |
| | 6. Cəbrayıl (dağ torpaqlar) | 1,10 | 1,17 |
| | 7. Ağdam (dağ torpaqlar) | 1,25 | 1,30 |
| **13.** | **Muğan-Salyan** | | |
| | 1. Salyan | 1,07 | |
| | 2. Saatlı | 1,08 | |
| | 3. Sabirabad | 1,06 | |
| | 4. Biləsuvar | 1,16 | |
| | 5. İmişli | 1,04 | |
| | 6. Neftçala | 1,0 | |
| | 7. Hacıqabul (Kürqırağı düzən hissəsi) | 1,05 | |

| | | | |
|---|---|---|---|
| **14.** | **Aran-Şirvan**<br>1. Zərdab<br>2. Kürdəmir<br>3. Ucar<br>4. Yevlax<br>5. Ağdaş<br>6. Ağsu (düzən torpaqlar)<br>7. Göyçay (düzən torpaqlar) | <br>1,11<br>1,06<br>1,0<br>1,03<br>1,19<br>1,15<br>1,05 | <br>1,09<br>1,10<br>1,0<br>1,04<br>1,17<br>1,20<br>1,15 |
| **15.** | **Lənkəran-Astara**<br>1. Lənkəran (düzən torpaqlar)<br>2. Astara (düzən torpaqlar)<br>3. Masallı (düzən torpaqlar) | <br>1,15<br>1,0<br>1,21 | <br>1,10<br>1,0<br>1,03 |
| **16.** | **Cəlilabad**<br>1. Cəlilabad (düzən torpaqlar) | <br>1,0 | <br>1,0 |
| **16 a** | **Üçtəpə-Təzəkənd**<br>1. Cəlilabad (dağ torpaqlar) | <br>1,0 | <br>1,0 |
| **17.** | **Lerik-Yardımlı**<br>1. Lerik<br>2. Yardımlı<br>3. Masallı (dağ torpaqlar)<br>4. Lənkəran (dağ torpaqlar)<br>5. Astara (dağ torpaqlar) | <br>1,19<br>1,0<br>1,29<br>1,25<br>1,23 | <br>1,0<br>1,04<br>1,15<br>1,14<br>1,08 |
| **18.** | **Şərur-Ordubad**<br>1. Şərur (düzən torpaqlar)<br>2. Sədərək (düzən torpaqlar)<br>3. Babək (düzən torpaqlar)<br>4. Ordubad (düzən torpaqlar)<br>5. Culfa (düzən torpaqlar) | <br>1,23<br>1,28<br>1,26<br>1,0<br>1,06 | <br>1,25<br>1,26<br>1,28<br>1,0<br>1,10 |
| **19.** | **Şaxbuz-Parağaçay**<br>1. Şahbuz<br>2. Şərur (dağ torpaqlar)<br>3. Sədərək (dağ torpaqlar)<br>4. Babək (dağ torpaqlar)<br>5. Ordubad (dağ torpaqlar)<br>6. Culfa (dağ torpaqlar) | <br>1,18<br>1,21<br>1,26<br>1,22<br>1,0<br>1,07 | <br>1,12<br>1,23<br>1,25<br>1,28<br>1,0<br>1,08 |

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1998-ci il 23 iyul tarixli 158 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

## KADASTR QİYMƏT RAYONLARI VƏ YARIMRAYONLARI ÜZRƏ TORPAQLARIN NORMATİV QİYMƏTİ

| Sıra -si | Kadastr qiymət rayonları, yarımrayonları və ora daxil olan inzibati rayonlar | Keyfiyyət qrupları | Bonitet balları | Əkin və dinc | | Çoxillik əkmələr | | Şərti yararsız torpaqların normativ qiyməti man/ha | Biçənəklərin normativ qiyməti man/ha | Kəndətrafı örüşlərin normativ qiyməti man/ha | Qış otlaqlarının normativ qiyməti man/ha | Yay ortlaqlarının normativ qiyməti man/ha |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | Differensial gəlir man/ha | Normativ qiymət man/ha | Differensial gəlir man/ha | Normativ qiymət man/ha | | | | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
| **1.** | **Abşeron-Qobustan** (Abşeron rayonu, Hacıqabulun Nəvahi-Atbulaq massivi, Xızının düzən torpaqları və Siyazənin Liman gölünə kimi düzən torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 61718<br>48708<br>42334<br>19363 | 6171800<br>4870800<br>4233400<br>1936300 | 126000<br>99860<br>77157<br>65436 | 12600000<br>9986000<br>7715700<br>6543600 | 709700 | 2359500 | 1638000 | 1027720 | |
| **2.** | **Şabran-Xaçmaz** (Xaçmaz rayonu, Şabran, Siyəzən, Quba və Qusarın düzən torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 87391<br>64062<br>40974<br>25378 | 8739100<br>6406200<br>4097400<br>2537800 | 34781<br>27323<br>18551<br>13414 | 3478100<br>2732300<br>1855100<br>1341400 | 1004900 | 3871030 | 2894720 | | |
| **3.** | **Qanıx-Türayançay** (Şəki, Zaqatala, Qax, Oğuz, Balakən və Qəbələnin düzən torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 186831<br>154315<br>125830<br>84253 | 18683100<br>15431500<br>12583000<br>8425300 | 106549<br>83137<br>43289<br>— | 10654900<br>8313700<br>4328900<br>— | 2167200 | 8066500 | 2715600 | 3951125 | |
| **4.** | **Şəki-Zaqatala** (Şəki, Zaqatala, Oğuz, Qax, Qəbələ və Balakən dağ torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 157752<br>131922<br>91113<br>55476 | 15775200<br>13192200<br>9111300<br>5547600 | 87370<br>68182<br>36112<br>21842 | 8737000<br>6818200<br>3611200<br>2184200 | 1814100 | 6049875 | 3321500 | | |
| **5.** | **Qusar-Qonaqkənd** (Qusar, Quba, Şabran, Siyəzən və Xızı rayonlarının dağ torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 55068<br>41310<br>26128<br>17123 | 5506800<br>4131000<br>2612800<br>1712300 | 17046<br>14336<br>10296<br>6569 | 1704600<br>1433600<br>1029600<br>656900 | 638800 | 4351008 | 2803566 | | |
| **5a.** | **Xınalıq-Xaltan** (Qusar və Quba rayonlarının orta və yüksək dağ torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 27641<br>17389<br>16530<br>5802 | 2764100<br>1738900<br>1653000<br>580200 | 14319<br>12042<br>8649<br>5518 | 1431900<br>1204200<br>864900<br>551800 | 392500 | 2318100 | 2273600 | | |

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **6.** | **Dağ-Şirvan** (Şamaxı, İsmayıllı rayonları, Ağsu və Göyçayın dağ torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 47824<br>36391<br>23764<br>13832 | 4782400<br>3639100<br>2376400<br>1383200 | 138837<br>106311<br>94217<br>45759 | 13883700<br>10631100<br>9421700<br>4575900 | 573900 | 3315780 | 3164100 | | |
| **6a.** | **Qobustan-Xilmilli**[8] (Qobustan rayonunun dağ torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 41670<br>31576<br>20670<br>11947 | 4167000<br>3157600<br>2067000<br>1194700 | 133283<br>102058<br>90448<br>43929 | 13328300<br>10205800<br>9044800<br>4392900 | 487500 | 2082900 | 1977200 | | |
| **7.** | **Gəncə-Qazax** (Samux rayonu, Şəmkir, Göygöl, Tovuz, Ağstafa, Qazax və Goranboy rayonlarının düzən torpaqları)[9] | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 43186<br>32276<br>27082<br>18463 | 4318600<br>3227600<br>2708200<br>1846300 | 146915<br>127925<br>93057 | 14691500<br>12792500<br>9305700 | 617500 | 2987300 | 1503400 | | |
| **8.** | **Mil-Qarabağ** (Bərdə, Ağcabədi, Beylaqan, Tərtər rayonları, Ağdam, keçmiş Ağdərə rayonunun ərazisinin və Xocavəndin düzən torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 91823<br>73372<br>57821<br>32778 | 9182300<br>7337200<br>5782100<br>3277800 | 76561<br>60850<br>43921<br>— | 7656100<br>6085000<br>4392100<br>— | 1055900 | 2472200 | 2932100 | 1819700 | |
| **9.** | **Arazboyu** (Zəngilan, Füzuli, Cəbrayıl rayonlarının düzən torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 40076<br>29756<br>26454<br>14655 | 4007600<br>2975600<br>2645400<br>1465500 | 206020<br>179083<br>140085<br>103774 | 20602000<br>17908300<br>14008500<br>10377400 | 472900 | 1905700 | 1010600 | 1212700 | |
| **10.** | **Daşkəsən-Gədəbəy** (Gədəbəy,Daşkəsən rayonları, Goranboy,Göygöl, Şəmkir, Tovuz, Ağstafa və Qazax rayonlarının dağ torpaqları)[10] | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 29862<br>25311<br>18557<br>11286 | 2986200<br>2531100<br>1855700<br>1128600 | | | 373200 | 1961300 | 561900 | | |
| **11.** | **Laçın-Qubadlı** (Kəlbəcər, Laçın, Qubadlı rayonları və Zəngilan rayonunun dağ torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 20631<br>16417<br>12316<br>7890 | 2063100<br>1641700<br>1231600<br>789000 | | | 233130 | 1364000 | 1265000 | | |
| **12.** | **Dağ-Qarabağ** (Şuşa, Xocalı rayonları və Xocavənd, keçmiş, Ağdərə rayonunun ərazisinin, habelə Füzuli, Cəbrayıl, Ağdam rayonlarının dağ torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 30070<br>21492<br>19142<br>14686 | 3007000<br>2149200<br>1914200<br>1468600 | 156396<br>131129<br>80800<br>72587 | 15639600<br>13112900<br>8080000<br>7258700 | 451000 | 968000 | 1315900 | | |
| **13.** | **Muğan-Salyan** (Salyan, Saatlı, Sabirabad, Biləsuvar, İmişli, Neftçala rayonları, Hacıqabulun Kürqırağı düzən hissəsi) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 70752<br>66219<br>54349<br>23835 | 7075200<br>6621900<br>5434900<br>2383500 | | | 834800 | | 812780 | 1184800 | |
| **14.** | **Aran-Şirvan** (Zərdab, Kürdəmir, Ucar, Yevlax, Ağdaş rayonları, Ağsu və Göyçay rayonlarının düzən torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 60777<br>53770<br>46707<br>21676 | 6077700<br>5377000<br>4670700<br>2167600 | 54699<br>41571<br>29537<br>16692 | 5469900<br>4157100<br>2953700<br>1669200 | 759700 | 3460600 | 1438400 | 1268700 | |
| **15.** | **Lənkəran-Astara** (Lənkəran, Astara və Masallı rayonlarının düzən torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 90282<br>84770<br>66164<br>35806 | 9028200<br>8477000<br>6616400<br>3580600 | 203385<br>154877<br>117975<br>71320 | 20338500<br>15487700<br>11797500<br>7132000 | 1047200 | 3266500 | 2373200 | | |
| **16.** | **Cəlilabad** (Cəlilabad rayonunun düzən torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 52909<br>42408<br>33630<br>— | 5290900<br>4240800<br>3363000<br>— | 143537<br>125680<br>76691<br>— | 14353700<br>12568000<br>7669100<br>— | 624300 | 3237100 | 2652600 | | |
| **16a.** | **Üçtəpə-Təzəkənd** (Cəlilabad rayonunun dağ torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 43385<br>34774<br>27577<br>— | 4338500<br>3477400<br>2757700<br>— | 132054<br>115626<br>70556<br>— | 13205400<br>11562600<br>7055600<br>— | 498900 | 2135500 | 2073700 | | |

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **17.** | **Lerik-Yardımlı**<br>(Lerik, Yardımlı rayonları, Masallı, Lənkəran və Astara rayonlarının dağ torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 25288<br>17527<br>13294<br>8607 | 2528800<br>1752700<br>1329400<br>860700 | 93187<br>69394<br>45721<br>31545 | 9318700<br>6939400<br>4572100<br>3154500 | 295800 | 1318600 | 770500 | | |
| **18.** | **Şərur-Ordubad**<br>(Şərur, Sədərək, Babək, Ordubad, Culfa rayonlarının düzən torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 37970<br>28682<br>22434<br>14655 | 3797000<br>2868200<br>2243400<br>1465500 | 53484<br>43818<br>30661<br>20827 | 5348400<br>4381800<br>3066100<br>2082700 | 444200 | 2442000 | 1083500 | | |
| **19.** | **Şahbuz-Parağaçay**<br>(Şahbuz rayonu, Şərur, Sədərək, Babək, Ordubad və Culfa rayonlarının dağ torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 16752<br>12944<br>8538<br>5965 | 1675200<br>1294400<br>853800<br>596500 | 29951<br>21718<br>15330<br>9580 | 2995100<br>2171800<br>1533000<br>958000 | 209400 | 999600 | 711700 | | 510900 |
| **20.** | **Acınohur**<br>(Qax, Şəki, Goranboy, Yevlax, Samux rayonlarının ərazisindəki qış otlaqları) | I<br>II<br>III<br>IV<br>V | | | | | | | | | 1648100 | |
| **21.** | **Ceyrançöl**<br>(Ağstafa, Tovuz, Şəmkir, Samux rayonlarının ərazilərindəki qış otlaqları) | I<br>II<br>III<br>IV<br>V | | | | | | | | | 1630100 | |
| **22.** | **Babadağ-Quton**<br>(Qusar, Quba, Şabran, Xızı, Şamaxı, İsmayıllı, Qəbələ, Oğuz, Şəki, Zaqatala, Qax, Balakən rayonlarının ərazilərindəki yay otlaqları) | I<br>II<br>III<br>IV<br>V | | | | | | | | | | 3292300 |
| **23.** | **Biçənək-Qapıcıq**<br>(Şahbuz, Ordubad, Culfa, Babək, Şərur rayonlarının ərazilərindəki yay otlaqları) | I<br>II<br>III<br>IV<br>V | | | | | | | | | | 592000 |
| **24.** | **Dəlidağ-Şahdağ**<br>(Gədəbəy, Daşkəsən, Göygöl, Goranboy, Kəlbəcər, Laçın, Şuşa, Xocavənd və keçmiş Ağdərə rayonlarının ərazilərindəki yay otlaqları)[11] | I<br>II<br>III<br>IV<br>V | | | | | | | | | | 1858200 |
| **25.** | **Peştəsər-Burovar**<br>(Yardımlı, Lerik, Astara rayonlarının ərazilərindəki yay otlaqları) | I<br>II<br>III<br>IV<br>V | | | | | | | | | | 1350400 |

**Qeyd.** 1. Respublikanın kənd rayonlarında həyətyanı sahələrin normativ qiyməti uyğun kadastr qiymət rayonunun əkininin 1-ci keyfiyyət qrupunun normativ qiymətinə uyğun olaraq hesablanır.

2. Bakı, Sumqayıt, Gəncə, Naxçıvan, Xankəndi, Şirvan, Mingəçevir, Lənkəran, Yevlax, Şəki, Naftalan Şamaxı, Qazax, Şəmkir, Salyan, Cəlilabad, Quba, Xaçmaz, Zaqatala, Göyçay şəhərlərində və digər rayon mərkəzlərində fərdi yaşayış evlərinin həyətyanı sahələrin, fərdi, kollektiv və kooperativ bağların, əvvəllər dövlət bağçılıq təsərrüfatlarının idarəçiliyində olan bağ sahələrin və digər torpaqların normativ qiymətləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 27 aprel tarixli 93 nömrəli qərarının 6 nömrəli əlavəsində göstərilən qiymətlərə əsasən hesablanır.[12]

3. Şərti yararsız torpaqlar qeyri-kənd təsərrüfatı istehsalı üçün alınıb-satıldıqda, onun normativ qiyməti beş dəfə artırılır.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 25 iyul 2007-ci il tarixli 117 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 7, maddə 741**)
2. 5 iyun 2008-ci il tarixli 130 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 6, maddə 582**)
3. 9 iyun 2008-ci il tarixli 132 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 6, maddə 584**)
4. 10 iyun 2008-ci il tarixli 134 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 6, maddə 586**)
5. 25 iyun 2010-cu il tarixli **122** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 6, maddə**

566)

6. 4 noyabr 2015-ci il tarixli 345 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 11, maddə 1409)**

**QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 4 noyabr 2015-ci il tarixli **345** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 11, maddə 1409)** ilə "Azərbaycan Respublikasında torpaqların normativ qiymətinin müəyyən edilməsi barədə Əsasnamə"nin 1-ci hissədə "**Dövlət Torpaq Komitəsi**" sözləri "**Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi (bundan sonra - ƏMDK)"** sözləri ilə əvəz edilmişdir.

[2] 4 noyabr 2015-ci il tarixli **345** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 11, maddə 1409)** ilə "Azərbaycan Respublikasında torpaqların normativ qiymətinin müəyyən edilməsi barədə Əsasnamə"nin 4-cü hissənin birinci abzasdan "( **dövlət müəssisə və obyektlərinin, habelə özəlləşdirilmiş müəssisə və obyektlərin yerləşdiyi torpaq sahələri istisna olmaqla)**" sözləri çıxarılmışdır və həmin abzasda "**xüsusi nümunədə arayış verilməsi və onun qeydiyyatı Dövlət Torpaq Komit**əsi" sözləri "**arayışın verilməsi və onun qeydiyyatı ƏMDK**" sözləri ilə əvəz edilmişdir.

[3] 4 noyabr 2015-ci il tarixli **345** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 11, maddə 1409)** ilə "Azərbaycan Respublikasında torpaqların normativ qiymətinin müəyyən edilməsi barədə Əsasnamə"nin 4-cü hissənin ikinci abzasda "**Dövlət Əmlak Komitəsi**" sözləri "**ƏMDK**" abreviaturası ilə əvəz edilmişdir.

[4] 25 iyun 2010-cu il tarixli **122** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 6, maddə 566**) ilə "Kadastr qiymət rayonları və yarımrayonları üzrə torpaqların normativ qiyməti" cədvəlinin 2-ci, 5-ci və 22-ci bəndlərinin "Kadastr qiymət rayonları, yarımrayonları və ora daxil olan inzibati rayonlar" sütununda və "Kadastr qiymət rayonlarına və yarımrayonlarına daxil olan inzibati rayonların torpaqlarının normativ qiymətinin hesablanması üçün tətbiq edilən təshih əmsalları" cədvəlinin 2-ci və 5-ci bəndlərinin "Kadastr qiymət rayonları, yarımrayonları və ora daxil olan inzibati rayonlar" sütununda "**Dəvəçi**" sözü "**Şabran**" sözü ilə əvəz edilmişsir.

[5] 5 iyun 2008-ci il tarixli 130 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 6, maddə 582**)ilə Kadastr qiymət rayonlarına və yarımrayonlarına daxil olan inzibati rayonların torpaqlarının normativ qiymətinin hesablanması üçün tətbiq edilən təshih əmsalları» cədvəlinin 6a bəndinin «Kadastr qiymət rayonları, yarımrayonları və ora daxil olan inzibati rayonlar» sütununda «**Mərəzə-Hilmilli**» sözləri «**Qobustan-Xilmilli**» sözləri ilə əvəz edilmişdir.

[6] 9 iyun 2008-ci il tarixli 132 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 6, maddə 584**) ilə «Kadastr qiymət rayonlarına və yarımrayonlarına daxil olan inzibati rayonların torpaqlarının normativ qiymətinin hesablanması üçün tətbiq edilən təshih əmsalları» cədvəlinin 7-ci bəndinin «Kadastr qiymət rayonları, yarımrayonları və ora daxil olan inzibati rayonlar» sütununda «**Xanlar**» sözü «**Göygöl**» sözü ilə əvəz edilmişdir.

[7] 9 iyun 2008-ci il tarixli 132 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 6, maddə 584**) ilə «Kadastr qiymət rayonlarına və yarımrayonlarına daxil olan inzibati rayonların torpaqlarının normativ qiymətinin hesablanması üçün tətbiq edilən təshih əmsalları» cədvəlinin 10-cu bəndinin «Kadastr qiymət rayonları, yarımrayonları və ora daxil olan inzibati rayonlar» sütununda «**Xanlar**» sözü «**Göygöl**» sözü ilə əvəz edilmişdir.

[8] 5 iyun 2008-ci il tarixli 130 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 6, maddə 582**)ilə Kadastr qiymət rayonları və yarımrayonları üzrə torpaqlarının normativ qiyməti» cədvəlinin 6a bəndinin «Kadastr qiymət rayonları, yarımrayonları və ora daxil olan inzibati rayonlar» sütununda «**Mərəzə-Hilmilli**» sözləri «**Qobustan-Xilmilli**» sözləri ilə əvəz edilmişdir.

[9] 9 iyun 2008-ci il tarixli 132 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 6, maddə 584**) ilə Kadastr qiymət rayonları və yarımrayonları üzrə torpaqların normativ qiyməti» cədvəlinin 7-ci bəndinin «Kadastr qiymət rayonları, yarımrayonları və ora daxil olan inzibati rayonlar» sütununda «**Xanlar**» sözü «**Göygöl**» sözü ilə əvəz edilmişdir.

[10] 9 iyun 2008-ci il tarixli 132 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 6, maddə 584**) ilə Kadastr qiymət rayonları və yarımrayonları üzrə torpaqların normativ qiyməti» cədvəlinin 10-cu bəndinin «Kadastr qiymət rayonları, yarımrayonları və ora daxil olan inzibati rayonlar» sütununda «**Xanlar**» sözü «**Göygöl**» sözü ilə əvəz edilmişdir.

[11] 9 iyun 2008-ci il tarixli 132 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 6, maddə 584**) ilə "Kadastr qiymət rayonları və yarımrayonları üzrə torpaqların normativ qiyməti» cədvəlinin 24-cü bəndinin «Kadastr qiymət rayonları, yarımrayonları və ora daxil olan inzibati rayonlar» sütununda «**Xanlar**» sözü «**Göygöl**» sözü ilə əvəz edilmişdir.

[12] 25 iyul 2007-ci il tarixli 117 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 7, maddə 741**) ilə "Kadastr qiymət rayonları və yarımrayonları üzrə torpaqların normativ qiyməti"nin qeyd hissəsinin 2-ci bəndində "**dövlət bağçılıq təsərrüfatlarının idarəçiliyindəki**" sözləri "**əvvəllər dövlət bağçılıq təsərrüfatlarının idarəçiliyində olan** " sözləri ilə əvəz edilmişdir.

10 iyun 2008-ci il tarixli 134 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 6, maddə 586**) ilə «Kadastr qiymət rayonları və yarımrayonları üzrə torpaqların normativ qiyməti»nin «Qeyd» hissəsinin 2-ci bəndində «**Əli-Bayramlı**» sözləri «**Şirvan**» sözü ilə əvəz edilmişdir.